## *MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ*
## *ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ*
## *PRESCHOOL EDUCATION AND UPBRINGING*

*UOT 373*

***Şərafət Aram qızı Baxışova***
*pedaqogika elmləri doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının dosenti*
*https://orcid=0000-0002-7848-2068*

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNKİŞAFETDİRİCİ TƏLİMİN HƏYATA KEÇİRİLMƏSİNDƏ TƏRBİYƏÇİ-MÜƏLLİMİN PEŞƏKARLIĞININ YÜKSƏLDİLMƏSİ YOLLARI

***Шарафат Арам гызы Бахышева***
*доктор педагогических наук,*
*доцент кафедры педагогики Дошкольного образования Азербайджанского Государственного Педагогического Университета,*

# ПУТИ ПОВЫШЕНИЯ ПРОФЕССИОНАЛИЗМА ВОСПИТАТЕЛЯ-ПЕДАГОГА ПРИ ОСУЩЕСТВЛЕНИИ РАЗВИВАЮЩЕГО ОБУЧЕНИЯ В ДОШКОЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

***Sharafat Aram Bakhishova***
*doctor in pedagogical sciences,*
*associate professor of the department of Pedagogy of preschool education at Azerbaijan State Pedagogical University*

# WAYS TO IMPROVE THE PROFESSIONALISM OF THE EDUCATOR-TEACHER IN THE IMPLEMENTATION OF DEVELOPMENTAL TRAINING IN PRESCHOOL EDUCATIONAL INSTITUTIONS

**Xülasə.** Təhsilin yaradıcı şəxsiyyət formalaşdırmaq missiyası onun humanist, humanitar xarakterini meydana çıxarır, yeni məzmun, pedaqoji texnologiyalar və idarəetmə sistemində gözlənilməsi ciddi tələb kimi nəzərə alınır. Yeni konsepsiyaya uyğun olaraq təhsilalanlarda keyfiyyət göstəricilərinin, dialoji mədəniyyətin formalaşdırılmasına üstünlük verilir. Təhsilin yeniləşməsi məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllimlərindən bu sistemdə baş verən innovativ dəyişikliklərin tendensiyalarını (cərəyanlarını) bilməsini tələb edir. Didaktik prosesin təkmilləşdirilməsinə istiqamətlənmiş innovativ fəaliyyət məktəbəqədər təhsil müəssisələrində tam innovativ sistemin komponentidir. Burada onun inkişafetdirici potensialını həyata keçirmək üçün təlim-tərbiyə işinin yüksəldilməsinə təsir göstərən məqsədlərin, məzmunun, formaların və metodların dəyişdirilməsi tələb olunur.

***Açar sözlər:*** *Təhsil, kadr hazırlığı, şəxsiyyət, inkişafetdirici təlim, metodlar, formalar, vasitələr, prinsiplər, keyfiyyətin yüksəldilməsi.*

**Резюме.** Миссия образования сформировать творческую личность, выявить ее гуманистический, гуманитарный характер, а ожидание нового содержания, педагогических технологий и системы управления рассматривается как серьезное требование. В соответствии с новой концепцией приоритет отдается формированию показателей качества и культуры общения. Модернизация образования требует от воспитателей-педагогов дошкольных образовательных учреждений знания тенденций (течений), инновационных изменений, происходящих в этой системе. Инновационная деятельность, направленная на совершенствование дидактического процесса, является составной частью целостной

инновационной системы в дошкольных образовательных учреждениях. Здесь для реализации ее развивающего потенциала требуется изменение целей, содержания, форм и методов, влияющих на совершенствование обучения.

***Ключевые слова***: *обучение, подготовка кадров, личность, развивающее обучение, методы, формы, средства, принципы, повышение качества*

**Summary.** The mission of education to form a creative personality brings out its humanistic, humanitarian character, and the expectation of new content, pedagogical technologies and management system is considered as a serious requirement. In accordance with the new concept, priority is given to the formation of quality indicators and dialogue culture. Modernization of education requires educators-teachers of preschool educational institutions to know the trends (currents) of innovative changes occurring in this system. Innovative activity aimed at improving the didactic process is a component of a complete innovative system in preschool educational institutions. Here, in order to realize its developmental potential, it is required to change the goals, content, forms and methods that affect the improvement of training.

***Key words:*** *Teaching, staff training, personality, developmental training, methods, forms, tools, principles, quality improvement.*

Hazırda yeni qurulan təhsildə idraki inkişafın parametrlərini nəzərə almaq, ona imkan və şərait yaratmaq əsas amil hesab edilir. Məktəbəqədər yaşlı uşaqlarda idrakın inkişaf səviyyəsi öyrənmə marağında, biliyə yiyələnmədə, biliyi dərketmə qabiliyyətində özünü göstərir ki, bu da uşağın həyat tərzi və onu əhatə edən mühitdən çox asılıdır.

Görkəmli psixoloq, professor Əbdül Əlizadə bütün bu prosesləri izləyərək haqlı olaraq belə bir qənaətə gəlmişdir ki, "XXI yüzillik ağılın, intellektin təntənəsi əsridir. Müstəqillik yoluna çıxmış respublikamızın milli mənafeyi Azərbaycan məktəbinin, ilk növbədə, məhz ağıl, intellekt məktəbi olmasını tələb edir"[1].

Azərbaycan təhsilinin modernləşdirilməsi şəraitində təhsilin bütün pillələrinə, həmçinin məktəbəqədər pilləsinə yeni tələblər irəli sürülür və təhsil özü yeni forma alır. Son illərdə təhsil sistemində aparılan islahatlar, təhsilin məzmununun təkmilləşdirilməsi, yeni pedaqoji texnologiyaların tətbiqi inkişafetdirici təlimin təmin olunmasını zərurətə çevirir.

Şəxsiyyətin həyatı boyu inkişafını tənzimləyən təhsil müxtəlif mərhələ və səviyyələrdə onun dəyərlərə yiyələnməsini bir məqsəd kimi həyata keçirir. İnsanın öyrənməsinə, inkişafına və mədəniyyətlərə sahib olmasına şərait yaradır. Müasir dünyanın təhsil paradiqmasında daha aydın görünən xüsusiyyətlər diqqəti cəlb edir. Onlardan birincisi şəxsiyyətin formalaşması problemidir. Başqa sözlə, şəxsiyyətin formalaşması təhsilin ana xəttidir. Bütün digər fəaliyyətlər bu xətdə birləşərək ümumi məqsədin reallaşdırılmasına təkan verir. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda qeyd olunduğu kimi, "yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq"[2] zəruri tələblərdən biridir. Bu həm təhsilin məzmunu, həm də təşkili üçün əsas meyarlardandır.

Təhsilin yaradıcı şəxsiyyət formalaşdırmaq missiyası onun humanist, humanitar xarakterini meydana çıxarır, yeni məzmun, pedaqoji texnologiyalar və idarəetmə sistemində gözlənilməsi ciddi tələb kimi nəzərə alınır. Yeni konsepsiyaya uyğun olaraq təhsilalanlarda yaradıcı qabiliyyəti inkişaf etdirmək, keyfiyyət göstəricilərinin, dialoji mədəniyyətin formalaşdırılmasına üstünlük verilir.

Təhsilin yeniləşməsi məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllimlərindən bu sistemdə baş verən innovativ dəyişikliklərin tendensiyalarını (cərəyanlarını) bilməsini tələb edir. Tərbiyəçi-müəllimin innovativ fəaliyyətinin səciyyəviliyi uşaqların idrak fəaliyyətini, fikri, yaradıcı qabiliyyətlərini, həmçinin oyun fəaliyyətini innovativ fəaliyyətin məqsədinə, formalarına və metodlarına yönəltməsi ilə müəyyən olunur ki, bu da inkişafetdirici texnologiyalar hesab edilir.

Məlumdur ki, bu gün özümüzün milli varlığımızı saxlamaqla yanaşı, həm də ümumi düşüncə tərzinə, inteqrativ təfəkkürə sahib olmalı, inkişafı daha geniş miqyasda, ən azı Avropa kontekstində görməyi bacarmalıyıq.

Hazırda təhsildə köklü dəyişikliklərə tələbat günbəgün artmaqdadır. Dünyada gedən sürətli inkişaf prosesləri dinamik xarakter daşıyır. Bu gün Azərbaycan bu proseslərdən kənarda qalmır, təhsilimiz təkmilləşir, dünya təhsil sisteminə inteqrasiya edir. Bu prosesdə yeni nəsil peşəkar,

yaradıcılıq qabiliyyətlərinə malik, pedaqoji vəzifələri çevik və keyfiyyətlə yerinə yetirən müəllim hazırlığı xüsusi əhəmiyyət kəsb edir.

Pedaqoji prosesin mərkəzində dayanan tərbiyəçi-müəllim və uşaqların funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. "Tərbiyəçi-uşaq" cütlüyündə ünsiyyətin istənilən növü tərbiyəvi xarakter daşıyır. Lakin bu ünsiyyət o zaman daha yüksək nəticələrə səbəb olar ki, onun əsasında qarşılıqlı hörmət, humanist münasibət dayanmış olsun. Pedaqoji ünsiyyət mədəniyyəti tərbiyəçi-müəllimin ünsiyyət üsullarına, texnikasına dərindən yiyələnməsi, pedaqoji ustalığının, pedaqoji yaradıcılığının nəticəsidir. Pedaqoji ustalıq pedaqoji prosesin uğurla həyata keçməsinin həlledici şərtlərindəndir.

Tərbiyəçi-uşaq ünsiyyəti tərbiyəçi-müəllimin uşaqlarla yalnız biliyi və elmi ilə deyil, eyni zamanda baxışı, mimikası, səs tonu, emosiyaları, jestləri, zahiri görkəmi və şəxsi nümunəsi ilə əlaqədardır. Hər bir uşaq bənzərsiz psixi və qeneoloji fərdiliyə malikdir, müxtəlif ailələrin xüsusiyyətlərini özündə birləşdirir. Tərbiyəçi-müəllimin ünsiyyət prosesində bunları hökmən nəzərə alması zəruridir. Pedaqoji ünsiyyətdə uşaqların şəxsiyyət kimi qəbul edilməsi, onların hərtərəfli inkişaf etdirilməsi üçün inkişafetdirici təlim mühitinin yaradılması, tərbiyəçi-müəllimin təlim fəaliyyətinin əsas tərkib hissələrini mənimsəməkdə uşağa kömək etməsi, eyni zamanda özünün biliklərin əldə edilməsinə və tətbiqinə dair zəruri əqli üsul və vasitələrə praktik cəhətdən yiyələnməsi böyük rol oynayır.

Bu tələblər "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyasında"[3] qeyd olunan təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim-tərbiyəçi peşəsinin nüfuzunun artırılması zərurətinə xidmət edir.

Psixoloji və pedaqoji araşdırmalarda uşaqların hələ erkən yaşda maraq dairəsinin geniş olması, onların zehninin itiliyi, öyrənmə və inkişaf imkanlarının geniş olması xüsusi olaraq göstərilir. Onlar daha çox informasiya toplamaq, fakt və hadisələrin mahiyyətinə varmaq arzusunda olurlar. Müşahidə etdiklərinin səbəblərini aydınlaşdırmağa səy göstərirlər. Bunun üçün də çoxlu suallarla müraciətlər edir, maraqlarını bildirirlər. Müşahidələr göstərir ki, bu vəziyyət əksər hallarda situativ xarakter daşıyır. Onun müvafiq qaydada sistemə salınmasına, müəyyən ardıcıllıqla şərh olunmasına ehtiyac yaranır.

İşin göstərilən texnoloji ardıcıllıqla qurulması aşağıdakı xüsusiyyətlər baxımından əhəmiyyətli hesab edilir.

Əvvəla, uşaqların təlim məşğələlərinə böyük marağı yaranır. Onlar bağçaya çox böyük həvəslə gəlir və təlim məşğələlərində məqsədyönlü fəallıq göstərir, tapşırıqları həvəslə yerinə yetirirlər.

İkincisi, təlim məşğələlərində deklarativlik zəifləyir və canlılıq müşahidə olunur. Məşğələlərdə olan dinamiklik uşaqları öyrənməyə, hadisə və faktlara daha fəal yanaşmağa, mühakimə yürütməyə, münasibət bildirməyə sövq edir.

Üçüncü, uşaqlarda kreativ, yaradıcı təfəkkürün formalaşması üçün imkan və şərait yaranır. Kreativlik yaradıcılığa əsaslanaraq formalaşır və onsuz fəaliyyət göstərmir. Kreativlik və yaradıcılıq bir-biri ilə sıx əlaqədədir, birinin digərindən təcrid olunmuş şəkildə fəaliyyəti mümkünsüzdür. Uşaqlar özlərinin arzu və istəklərinə, maraqlarına uyğun olan hər hansı tapşırığı yerinə yetirir və bu zaman xüsusi bacarıqlar nümayiş etdirməklə istedad və qabiliyyətlərini nümayiş etdirirlər. Kreativlik insanın şəxsiyyətilə əlaqəli, lakin ondan asılı olmayan, düşüncə və fəaliyyətdə özünü göstərən potensialdır. Şəxsiyyətə xas belə spesifik fəaliyyət yeniliyin yaranmasına gətirib çıxarır. Kreativlik daha çox insanın özünə münasibətində üzə çıxır. O daha çox davranış formasıdır, nəinki istedad. Yaradıcılıq qabiliyyətə malik şəxslər kreativ fəaliyyət nümayiş edirlər. K. Rocersin fikrincə, insan şəxsi təcrübəsinə əsaslandıqda onun davranışı daha kreativ və konstruktiv təbiətə malik olur [5]. K. Rocersin fikrinə əsaslanaraq, deyə bilərik ki, insanın zəngin şəxsi təcrübəyə malik olması kreativliyin formalaşmasına və inkişafına münbit şərait yaradır.

Dördüncü, ən zəruri həyati bacarıqların (kommunikativ, qrupda işləmək, problemi həll edə bilmək və s.) formalaşmasına imkan yaranır.

Yuxarıda qeyd etdiklərimiz inkişafetdirici təlim prosesində uşağın və tərbiyəçi-müəllimin ayrı-ayrılıqda inkişafını deyil, bunların təlim prosesinin vahid subyekti kimi inkişaf etməsini göstərir. Vahid subyektin inkişafının göstəriciləri isə fikir və düşüncələr sistemidir. Buradan

belə qənaətə gəlmək olar ki, uşaq və tərbiyəçi-müəllimin vahid subyekt kimi inkişafı fəaliyyət, şüur və şəxsiyyətin vahidliyi psixoloji prinsipləri (A.N. Leontyev) və "sağlam düşüncə pedaqogikası"nın (A.A. Leontyev) pedaqoji prinsiplər sisteminin təcrübəyə tətbiq etməklə inkişafı təmin etmək olar.

Təcrübə göstərir ki, peşəkar tərbiyəçi-müəllim hər bir uşağın emosional durumunu nəzərə alaraq qrup otağında inkişafetdirici mühit yaradır. Məktəbəqədər müəssisələrdə inkişafetdirici mühit uşaqların tədqiqat aparmaları, fəaliyyətlə məşğul olmaları və ətraf mühitə dair öz anlayışlarını formalaşdırmaları üçün yaşıdları və böyüklərlə ünsiyyət yaratmaları, əməkdaşlıq etmələri üçün imkan yaratmalıdır.

Tərbiyəçi-müəllimin kreativ təfəkkürünün inkişafının daxili şəraitinə onun yeni təcrübəyə açıqlığı, hazırlığı aiddir. Daxili şəraitin yaranması üçün xarici şərait olmalıdır. Burada təhlükəsiz mühit və psixoloji azadlıq, tərbiyəçi-müəllimin şəxsi inkişafı, özünüreallaşdırma, motivasiya və stimullaşdırma xüsusi rol oynayır. O, məşğələdə qayğıkeş və həvəsləndirici təlim mühiti yaratmaqla uşaqların müstəqil fikir söyləməsinə imkan verir. Tərbiyəçi-müəllim təlim prosesində uşaqlara qarşı çox diqqətli olur, onlarla əməkdaşlıq edir, uşaqların hisslərinə, fikirlərinə hörmətlə yanaşır. Eyni zamanda uşaqların məşğələdə sərbəst fikir söyləməsinə, münasibət bildirməsinə, müstəqil fəaliyyət göstərməsinə, eyni zamanda məşğələdə uşaqların idrak fəallığı nümayiş etdirmələrinə, yəni sərbəst müqayisə etmək, təhlil etmək, sərbəst fikir söyləmək, ümumiləşdirmə aparmaları üçün şərait yaradır. Tərbiyəçi-müəllim məşğələnin inteqrativ xarakter daşıdığı üçün inkişafetdirici təlimin təmin olunmasında böyük rol oynayır.

Təhsil o zaman keyfiyyətli olur ki, tədris prosesinə istiqamət verən və onu inkişaf etdirən tərbiyəçi-müəllimlərin bilikləri kifayət qədər təkmilləşdirilmiş və yeniləşdirilmiş olsun, müasir tələblərə cavab versin. Bu baxımdan pedaqoji texnologiyalar ölkədə təhsil islahatının ayrılmaz bir hissəsi kimi tərbiyəçi-müəllim hazırlığında da mühüm rol oynayır.

Hazırda təhsildə köklü dəyişikliklərə tələbat günbəgün artmaqdadır. İnnovasiyalar, yeniliklər təlimdə tətbiq olunan yanaşmalarda özünü büruzə verməlidir. Bununla bağlı hər bir yenilik və innovasiya məhsulun yaranmasına dair yanaşma və prinsipləri əhatə etməlidir.

Məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji kadrlar aşağıdakı zəruri bilik və bacarıqlara malik olmalıdır:

-uşaqların təliminin müxtəlif strategiyaları üzrə bilik və bacarığı (oyun əsaslı, erkən savadlılıq, dil bacarıqlarının inkişafı və s.);

-uşaqlarla ünsiyyət və əməkdaşlıq;

-məktəbəqədər təhsil sahəsində yerli, milli və beynəlxalq kontekstdə mövcud vəziyyət haqqında bilik;

-məktəbəqədər yaşlı uşaqların sağlamlıq və qayğısı haqqında, həmçinin onların sosial müdafiəsi haqqında baza biliyi;

-yenilikləri tətbiq edən, yaradıcı, informasiya və kommunikativ texnologiyalarından istifadə bacarığı;

-uşağın bioloji, psixoloji, fizioloji və sosial inkişaf xüsusiyyətlərini (yaş psixologiyası və inkişaf nəzəriyyələrini) yaxşı bilməsi;

-uşağın meyl, maraq və qabiliyyətlərini aşkara çıxarıb inkişaf etdirmək bacarığı;

-uşağın yaş səviyyəsini, potensial imkanlarını nəzərə almaqla təlim prosesini səmərəli təşkil etmək bacarığı;

-inkişafetdirici mühit və işgüzar şərait yaratmaq bacarığı;

-ailələrin uşaq inkişafında və təhsilində rolunu nəzərə alaraq, ailələrlə əməkdaşlıq etmək bacarığı (onlarla müxtəlif yollarla ünsiyyət qurmaq, onları uşaqlardan olan gözləntiləri haqqında məlumatlandırmaq və s.);

-uşağın irəliləyişini sistematik şəkildə sənədləşdirmək bacarığı;

-özünü daim inkişaf etdirmək bacarığı.

Məqsəd təhsildə dəyişikliklərdirsə, bütün məktəbəqədər təhsil işçiləri prosesə cəlb olunmalı, yeni hədəflərə doğru hərəkət etməlidirlər. Bunun üçün kreativliyin inkişafı təhsilin bütün pillələrində təmin olunmalıdır, çünki o, innovasiyalara təkan verən mühüm amillərdəndir. Kreativlik və innovasiyalar dövrün tələbi olduğundan, islahatlara məktəbəqədər təhsilin məzmununun yeni tələblərə uyğun müəyyənləşdirilməsindən başlanmalıdır. Bu, əvvəllər qazanılmış müsbət təcrübə əsasında bütün istiqamətlər üzrə davamlı yeniliklərin həyata keçirilməsi ilə nəticələnməlidir. Dəyişikliklərin əsas hərəkətverici qüvvəsi tərbiyəçi-müəllimlər olmalıdır.

Məktəbəqədər yaşlı uşaqlar üçün kreativliyin başlıca mənbəyi tərbiyəçi-müəllimdir. Bu səbəbdən tərbiyəçi-müəllimlərin innovasiyaları tətbiq etmək üçün pedaqoji və psixoloji dəstəyə ehtiyacı var. Tərbiyəçi-müəllimlər iş yerində özlərini rahat hiss etməlidirlər.

Məlumdur ki, pedaqoji prosesin düzgün təşkili tərbiyəçi-müəllimin rəhbərliyi altında uşaqların bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi, onların məktəbə hazırlanmasıdır. Burada iki cəhət özünü göstərir. Birincisi, bu prosesdə bir tərəfdən uşaqlar bilik, bacarıq və vərdişlərə yiyələnir, digər tərəfdən şəxsiyyət kimi formalaşırlar. Birinci halda təlim, ikinci halda tərbiyə funksiyası yerinə yetirmiş olur. Deməli, təlimlə tərbiyənin vəhdətdə götürülməsi lazım gəlir. Lakin bunları eyniləşdirmək də olmaz. Tərbiyədən fərqli olaraq, təlimin başlıca vəzifəsi uşaqları bilik, bacarıq və vərdişlər sisteminə yiyələndirmək, onların təfəkkürünü, zehni qabiliyyətini inkişaf etdirməkdən ibarətdir. Təlim prosesi iki tərəfin tərbiyəçi – müəllimin və uşağın birgə fəaliyyəti zamanı həyata keçirilir. Bu isə öyrətmə və öyrənmə proseslərinin birliyi şəraitində mümkündür.

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin təşkili zamanı təlim-tərbiyə işi elə qurulur ki, təlim daha çox uşaqların fəallığına əsaslandırılır. Tərbiyəçi-müəllimlər isə həmin fəallıqdan istifadə etməyi bacarmalıdırlar. K.D. Uşinski öz əsərlərində bu məsələyə toxunaraq yazır: “Təlimdə hər şey maraqlı ola bilməz. Maraqsız şeylər var və olmalıdır. Uşağa təkcə maraqlı olan şeyləri deyil, maraqsız olan şeyləri də öyrətmək lazımdır. Siz uşağı həyata hazırlayırsınız, həyatda isə hər vəzifə maraqlı deyil”[4].

Zəngin pedaqoji təcrübəyə malik tərbiyəçi-müəllimlərin illər boyu eyni yanaşmadan yararlanması ağlasığmazdır. Kreativ düşüncəyə malik olan tərbiyəçi-müəllimlər yanaşma və metodlarında daim dəyişikliklər aparmalı, yeniliklərə meylli və açıq olmalıdırlar. Tərbiyəçi-müəllimin kreativliyi yalnız iş vərəqləri və təqdimatlara şəkillərin əlavə edilməsindən, uşaqlara internetdən video-roliklərin nümayişindən və musiqi dinlətməsindən ibarət deyil. Təlim prosesində kreativliyin inkişafı təlim materialının yeni, orijinal yollarla çatdırılması, uşaqlarda problem həlli vasitəsilə kreativ düşüncənin formalaşdırılmasıdır.

Təhsilin humanistləşdirilməsi, təlim-tərbiyənin demokratik əsaslar üzərində qurulması tərbiyəçi-müəllim və uşaq münasibətlərinin də yeni zəmində subyekt-subyekt münasibətləri üzərində qurulmasını tələb edir.

**Problemin aktuallığı.** Müasir tərbiyəçi-müəllimin əsas funksiyası uşaqlara öyrənməyi öyrətməkdir. Bunun üçün tərbiyəçi-müəllimin özü daima inkişafda olmalıdır, çünki o, pedaqoji prosesdə həlledici qüvvə kimi çıxış edir. Şəxsiyyətin ahəngdar inkişafı vəzifəsi, ilk növbədə, tərbiyəçi-müəllimin üzərinə düşür.

**Problemin elmi yeniliyi**. Təhsilin məzmunu yalnız təlimin keyfiyyətinin yüksəldilməsi və ixtisaslı mütəxəssis hazırlığı ilə məhdudlaşmır. Gələcək kadrların, mütəxəssislərin həm də həyati bacarıqlara yiyələnmiş bir şəxsiyyət, dövlətçilik və vətəndaşlıq mövqeyinə malik olan, öz peşəsinin mahir bilicisi və qabiliyyətli, çevik qərarlar qəbul etməyi bacaran mütəxəssis kimi yetişməsi təmin edilməlidir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən məktəbəqədər təhsil müəssisələrində çalışan mütəxəssislər faydalana bilər.

**Ədəbiyyat:**


1. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / Ə.Ə. Əlizadə. -Bakı: “Ozan”, -1998, -səh.97.
2. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu // Kurikulum. -2009, № 4, -s.131
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. // Azərbaycan müəllimi. -2013, 25 oktyabr.
4. Uşinski, K.D. Seçilmiş pedaqoji əsərləri. / K.D. Uşinski. -Bakı: Azərnəşr, -1953, -98 s.
5. Роджерс, К. Р. Взгляд на психотерапию. Становление человека. / К. Р. Роджерс - М.: Издательская группа «Прогресс», «Универс», -1994. -480 с.
6. Выготский, Л.С. Детская психология. Собр. Соч. В 6-ти томах, Т 4 / Под ред. А.В. Запорожца и др. -М.: Педагогика, -1984, -432 с.


**E-mail:** sharafat_baxishova1960@mail.ru

**Rəyçilər:** *ped.elm. dok., prof,* **M. İ. İlyasov**
*ped.ü. fəlsəfə dok., dos* **L. K. Cəfərova**
**Redaksiyaya daxil olub: 20.09.2023**